**“MÖRTEL” QSC**

**31 dekabr 2023-cü il tarixində bitən il üzrə**

**Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına Uyğun Maliyyə Hesabatları və Müstəqil Auditorun Hesabatı**

**MÜNDƏRİCAT**

MÜSTƏQİL AUDİTORUN HESABATI

MALİYYƏ HESABATLARI

Maliyyə vəziyyəti haqqında hesabat ........ 1
Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat ........ 2
Kapitalda dəyişikliklər haqqında hesabat ........ 3
Pul vəsaitlərinin hərəkəti haqqında hesabat ........ 4

Maliyyə hesabatları üzrə qeydlər ........ 5-24

MASTER AUDIT SERVICES

"Master Audit Services" MMC

VÖEN № 1406704011; İcazə № AT/292 ; 25.01.2024-cü il ; mail: masterauditservices@gmail.com, AZ1078, Bakı şəhəri, Nəsimi rayonu, Ənvər Hüseynov küçəsi 5/7, m.512 mob.: +994 50 226 26 58, +994 55 849 67 39.

# MÜSTƏQİL AUDİTORUN HESABATI

"MÖRTEL" QSC -nin Səhmdarına və Rəhbərliyinə:

**Rəy**

Biz "MÖRTEL" Qapalı Səhmdar Cəmiyyətinin 31 dekabr 2023-cü il tarixinə maliyyə vəziyyəti haqqında hesabatı və həmin tarixdə bitən il üzrə mənfəət və ya zərər və digər məcmu gəlirlər, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, habelə, əsas mühasibat prinsiplərinin və digər izahedici məlumatların xülasəsindən ibarət olan Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun hazırlanmış maliyyə hesabatlarının audit yoxlamasını apardıq.

Bizim rəyimizə əsasən, hazırkı maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2023-cü il tarixinə maliyyə vəziyyətini, və həmin tarixdə bitən il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq düzgün və ədalətli şəkildə əks etdirir.

***Rəy üçün əsas***

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətimiz əlavə olaraq hesabatımızın "Maliyyə Hesabatlarının Auditinə görə Auditorun Məsuliyyəti" bölməsində təsvir edilir. Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının Peşəkar Mühasiblər üçün müəyyən etdiyi "Etika məcəlləsinin" (MBESŞ məcəlləsi) tələblərinə uyğun olaraq biz Təşkilatdan asılı deyilik və biz digər etik öhdəliklərimizi MBESŞ məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Rəhbərliyin və maliyyə hesabatlarının idarə edilməsi üzrə məsul tərəflərin öhdəlikləri**

Rəhbərlik bu maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq hazırlanmasına, obyektiv şəkildə təqdim edilməsinə, eləcə də, hesabatlarının saxtakarlıq və ya səhvlərdən irəli gələn əhəmiyyətli təhriflər olmadan tərtib edilməsi üçün zəruri hesab etdiyi daxili nəzarət sisteminə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatları hazırlayarkən rəhbərlik Cəmiyyətin fəaliyyətin fasiləsizliyi prinsipi əsasında işini davam etdirmə potensialını qiymətləndirmək, müvafiq olduqda daimilik prinsipi ilə bağlı məsələləri açıqlamaq və rəhbərlik Cəmiyyət ləğv etmək və ya fəaliyyətini dayandırmaq istəyənədək, yaxud bunu etmək üçün real seçimi olmayanadək hesabatlılığın fəaliyyətin fasiləsizliyi prinsipi istifadə etmək üzrə məsuliyyət daşıyır.

Rəhbərlik Cəmiyyətin maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarət üçün məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz saxtakarlıq yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq maliyyə hesabatlarında əhəmiyyətli səhvlərə yol verilmədiyinə dair kifayət qədər əminlik əldə etmək və rəyimizi özündə əks etdirən auditor hesabatının hazırlanmasından ibarətdir. Kifayət qədər əminlik dedikdə yüksək əminlik səviyyəsi nəzərdə tutulur. Lakin belə əminlik səviyyəsi Beynəlxalq Audit Standartlarına uyğun auditin aparılması zamanı bütün əhəmiyyətli təhriflərin aşkar olunacağına zəmanət vermir. Fırıldaqçılıq və ya səhv nəticəsində yarana biləcək təhriflər o halda əhəmiyyətli hesab edilir ki, onlar ayrı-ayrılıqda və ya bütövlükdə maliyyə hesabatları əsasında istifadəçilərin qəbul etdikləri iqtisadi qərarlara təsir göstərə bilsin.

Beynəlxalq Audit Standartları əsasında aparılan audit yoxlamasının bir hissəsi kimi biz audit prosesində peşəkar mühakimə və peşəkar skeptisizm prinsipi tətbiq edirik. Biz həmçinin:

- Saxtakarlıq yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq maliyyə hesabatlarının əhəmiyyətli dərəcədə təhrif edilməsi risklərini müəyyən edir və qiymətləndirir, bu risklərə qarşı audit prosedurları işləyib hazırlayır və tətbiq edir; rəyimizin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edən audit sübutu əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranan əhəmiyyətli təhriflərin aşkar edilməməsi riski səhv nəticəsində yaranan əhəmiyyətli təhriflərin aşkar edilməməsi riskindən yüksəkdir. Belə ki, fırıldaqçılıq gizli sövdələşmə, saxtakarlıq, məlumatların bilərəkdən göstərilməməsi, təhrif edilmiş şəkildə təqdim edilməsi və ya daxili nəzarət sistemində sui-istifadə hallarını nəzərdə tutur.

- Cəmiyyətin daxili nəzarət sisteminin effektivliyi barədə rəy bildirmək üçün deyil, şəraitə uyğun audit prosedurlarının işlənib hazırlanması məqsədilə audit üçün əhəmiyyətli olan daxil nəzarət sistemi üzrə məlumat əldə edirik.

- Tətbiq edilən uçot siyasətlərinin uyğunluğunu, uçot təxminlərinin və rəhbərlik tərəfindən hazırlanmış müvafiq açıqlamaların əsaslı olduğunu qiymətləndiririk.

- Fəaliyyətin fasiləsizliyi ilə bağlı rəhbərliyin mülahizələrinin uyğunluğu və əldə edilmiş audit sübutlarına əsasən Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyəti ilə bağlı əhəmiyyətli dərəcədə şübhə yarada biləcək hadisə və şərait üzrə qeyri-müəyyənliyin mövcud olub-olmamasına dair fikir bildiririk. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu barədə nəticəyə gəldikdə, biz auditor rəyimizdə diqqəti maliyyə hesabatlarındakı müvafiq açıqlamalara cəlb etməli, belə açıqlamalar yetərli olmadıqda, rəyimizi dəyişdirməliyik. Nəticələrimiz auditor hesabatının tarixinədək əldə edilmiş audit sübutlarına əsaslanır. Lakin gələcək hadisə və şəraitlər Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətini dayandırmasına səbəb ola bilər.

- Maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, o cümlədən açıqlamaları və maliyyə hesabatlarında mövcud əməliyyatlar və hadisələrin düzgün təqdim edilməsini qiymətləndiririk.

Biz digər məsələlərlə yanaşı, planlaşdırılan audit prosedurlarının həcmi və vaxtı, əhəmiyyətli audit nəticələri, eləcə də audit prosesində müəyyən etdiyimiz daxili nəzarət sistemindəki əhəmiyyətli çatışmazlıqlar barədə məlumat təqdim edirik.

30 may 2024-cü il

Bakı, Azərbaycan Respublikası

**"Master Audit Services" MMC**

MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ MASTER AUDİT SERVICES LIMITED LIABILITY COMPANY AZƏRBAYCAN RESPUBLİKASI AZERBAIJAN REPUBLIC

*"MÖRTEL" QSC*
***Mənfəət və ya zərər və digər məcmu gəlirlər haqqında hesabat***
***31 dekabr 2023-cü il tarixində bitən il üzrə***

*(Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2023-ci il | 31 dekabr 2022-ci il (Yenidən təsnifləşdirilmiş) |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| **Uzunmüddətli aktivlər** | | | |
| Əsas vəsaitlər | 6 | 497,041 | 604,325 |
| Qeyri maddi aktivlər | 7 | 21,098 | 23,779 |
| Sair uzunmüddətli aktivlər | 8 | 5,731 | 6,809 |
| **Cəmi uzunmüddətli aktivlər** | | **523,870** | **634,913** |
| **Qısamüddətli aktivlər** | | | |
| Mal-material ehtiyatları | 9 | 316,030 | 478,141 |
| Ticarət və digər debitor borclar | 10 | 444,828 | 1,396,901 |
| Ödənilmiş avanslar | 10 | 2,339,265 | 745,253 |
| Pul və pul vəsaitlərinin ekvivalentləri | 11 | 147,725 | 202,798 |
| Digər cari aktivlər | 12 | 64,269 | 52,668 |
| **Cəmi qısamüddətli aktivlər** | | **3,312,118** | **2,875,760** |
| **CƏMİ AKTİVLƏR** | | **3,835,988** | **3,510,673** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | |
| **Kapital** | | | |
| Nizamnamə kapitalı | | 50,000 | 50,000 |
| Bölüşdürülməmiş mənfəət | | 1,803,551 | 1,533,731 |
| **CƏMİ KAPİTAL** | | **1,853,551** | **1,583,731** |
| **ÖHDƏLİKLƏR** | | | |
| **Uzunmüddətli öhdəliklər** | | | |
| Sair uzunmüddtəli öhdəliklər | 13 | 20 | 20 |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | **20** | **20** |
| **Qısamüddətli öhdəliklər** | | | |
| Ticarət və digər kreditor borclar | 14 | 442,887 | 476,989 |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 14 | 109,004 | 58,993 |
| Alınmış avanslar | 14 | 1,430,526 | 1,390,940 |
| **Cəmi qısamüddətli öhdəliklər** | | **1,982,417** | **1,926,921** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **1,982,437** | **1,926,941** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **3,835,988** | **3,510,673** |

Direktor

Maliyyə direktoru

AZƏRBAYCAN RESPUBLİKASI QAPALI SƏHMDAR CƏMİYYƏTİ VÖEN 2005523821 MÖRTEL

*"MÖRTEL" QSC*
***Mənfəət və ya zərər və digər məcmu gəlirlər haqqında hesabat***
***31 dekabr 2023-cü il tarixində bitən il üzrə***

*(Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2023-cü il tarixində bitən il üzrə | 31 dekabr 2022-ci il tarixində bitən il üzrə (Yenidən təsnifləşdirilmiş) |
|---|---|---|---|
| Gəlir | 15 | 8,577,646 | 6,435,904 |
| Satışların maya dəyəri | 16 | (5,226,168) | (4,121,977) |
| **Xalis mənfəət** | | **3,351,478** | **2,313,927** |
| Digər əməliyyat gəlirləri | 15 | - | 3,509 |
| İnzibati xərclər | 16 | (2,218,720) | (1,511,430) |
| **Əməliyyat gəliri** | | **1,132,758** | **806,006** |
| **Vergidən əvvəlki mənfəət** | | **1,132,758** | **806,006** |
| Mənfəət vergisi xərci | | (295,623) | (199,211) |
| **İl üzrə xalis mənfəət** | | **837,135** | **606,794** |
| Digər məcmu gəlirlər | | - | - |
| **İl üzrə cəmi məcmu gəlir** | | **837,135** | **606,794** |

Direktor

Maliyyə direktoru

AZƏRBAYCAN RESPUBLİKASI QAPALI SƏHMDAR CƏMİYYƏTİ VÖEN: 2005523821 MÖRTEL TAX ID: 2005523821 CLOSED JOINT-STOCK COMPANY AZERBAIJAN REPUBLIC

***"MÖRTEL" QSC***
***Kapitalda dəyişikliklər haqqında hesabat***
***31 dekabr 2023-cü il tarixində bitən il üzrə***

*(Azərbaycan manatı ilə)*

| | **Nizamnamə kapitalı** | **Bölüşdürülməmiş mənfəət** | **Cəmi kapital** |
|---|---|---|---|
| **31 dekabr 2021-ci il tarixinə qalıq** | **50,000** | **1,626,437** | **1,676,437** |
| İl üzrə cəmi məcmu gəlir | - | 606,794 | **606,794** |
| Ödənilən dividend | - | (699,500) | **(699,500)** |
| **31 dekabr 2022-ci il tarixinə qalıq** | **50,000** | **1,533,731** | **1,583,731** |
| İl üzrə cəmi məcmu gəlir | - | 837,135 | **837,135** |
| Ödənilən dividend | - | (567,315) | **(567,315)** |
| **31 dekabr 2023-cü il tarixinə qalıq** | **50,000** | **1,803,551** | **1,853,551** |

Direktor

Maliyyə direktoru

AZƏRBAYCAN RESPUBLİKASI QAPALI SƏHMDAR CƏMİYYƏTİ VÖEN: 2005523821 MÖRTEL TAX ID: 2005523821 CLOSED JOINT-STOCK COMPANY AZERBAIJAN REPUBLIC

*"MÖRTEL" QSC*
***Pul vəsaitlərinin hərəkəti haqqında hesabat***
***31 dekabr 2023-cü il tarixində bitən il üzrə***

*(Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2023-cü il tarixində bitən il üzrə | 31 dekabr 2022-ci il tarixində bitən il üzrə (Yenidən təsnifləşdirilmiş) |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını** | | | |
| **Hesabat dövründə xalis mənfəət və ya zərər** | | **837,135** | **606,794** |
| *Düzəlişlər:* | | | |
| Mənfəət vergisi üzrə xərclər | | 295,623 | 199,211 |
| Əsas vəsaitlərin və qeyri-maddi aktivlərin köhnəlməsi | | 140,660 | 176,508 |
| İnvestisiya fəaliyyəti ilə əlaqədar zərər (mənfəət) | | - | 556 |
| Sair qeyri-pul əməliyyatları üzrə xərclər | | (65,628) | - |
| **Dövriyyə kapitalındakı dəyişikliklərə qədər əməliyyat fəaliyyəti üzrə xalis pul vəsaitləri** | | **1,197,838** | **993,022** |
| Mal-material ehtiyatlarında dəyişiklik | | 162,111 | (387,053) |
| Ticarət və digər debitor borclarında dəyişiklik | | 952,073 | (1,275,842) |
| Sair uzunmüddətli aktivlərdə dəyişiklik | | 1,078 | (6,809) |
| Ödənilmiş avanslar | | (1,594,013) | (153,784) |
| Digər cari aktivlərdə dəyişiklik | | (11,601) | 77,665 |
| Digər uzunmüddətli öhdəliklərdə dəyişiklik | | - | 20 |
| Ticarət və digər kreditor borclarında dəyişiklik | | (34,102) | 206,593 |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklərdə dəyişiklik | | 50,011 | 58,993 |
| Alınmış avanslarda dəyişiklik | | 39,586 | 1,390,940 |
| Digər cari öhdəliklərdə dəyişiklik | | - | (51,571) |
| Ödənilmiş mənfəət vergisi | | (234,542) | (199,211) |
| **Əməliyyat fəaliyyəti üzrə xalis pul vəsaitləri** | | **538,392** | **643,010** |
| **İnvestisiya fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | | |
| Əsas vəsaitlərin və qeyri-maddi aktivlərin alınması | | (26,149) | (98,640) |
| **İnvestisiya fəaliyyəti üzrə xalis pul vəsaitləri** | | **(26,149)** | **(98,640)** |
| **Maliyyə fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | | |
| Ödənilmiş dividend | | (567,315) | (699,500) |
| **Maliyyə fəaliyyəti üzrə xalis pul vəsaitləri** | | **(567,315)** | **(699,500)** |
| **Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərində xalis dəyişiklik** | | **(55,072)** | **(155,130)** |
| **Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri – ilin əvvəlinə** | 11 | **202,798** | **357,928** |
| **Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri – ilin sonuna** | 11 | **147,725** | **202,798** |

Direktor

Maliyyə direktoru

AZƏRBAYCAN RESPUBLİKASI QAPALI SƏHMDAR CƏMİYYƏTİ VÖEN 2005523821 MÖRTEL TAX ID 2005523821 CLOSED JOINT-STOCK COMPANY AZERBAIJAN REPUBLIC

*(Azərbaycan manatı ilə)*

## 1. Cəmiyyətin əsas fəaliyyəti və ümumi məlumat

"MÖRTEL" QSC (bundan sonra – "Cəmiyyət") Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq 06 mart 2019-cu il tarixində 2005523821 qeydiyyat nömrəsi ilə qeydiyyata alınmış və Azərbaycan Respublikasının normativ hüquqi aktlarına uyğun olaraq yaradılmışdır. Cəmiyyətin 31 dekabr 2023-cü il tarixinə işçilərinin sayı 62 nəfərdən ibarət olmuşdur.

**Cəmiyyət aşağıdakı fəaliyyətlərlə məşğuldur**

• Digər mülkü tikintilər.

**Cəmiyyətin hüquqi ünvanı**

Bakı şəhəri, Xətai rayonu, Xocalı prospekti, ev 37.
**Cəmiyyətin səhmdarların sıyahısı**

| Səhmdarlar | Pay faizi |
|---|---|
| "LSA MARİNE" QSC | 98% |
| Vəliyev Oruc Göyüş oğlu | 2% |
| **Cəmi** | **100%** |

## 2. Əməliyyat mühiti

Azərbaycan iqtisadiyyatında inkişaf etməkdə olan bazarlara xas müəyyən xüsusiyyətlər müşahidə edilir. Azərbaycan iqtisadiyyatının mövcud və gələcək artımı və dayanıqlığı hökumətin həyata keçirdiyi fiskal və monetar tədbirlərin effektivliyindən, eləcə də xam neftin qiymətlərindən və Azərbaycan manatının sabitliyindən əhəmiyyətli dərəcədə asılıdır.

2023-cü ildə ölkədə 123,0 milyard manatlıq və ya əvvəlki illə müqayisədə 1,1 faiz çox ümumi daxili məhsul istehsal olunmuşdur.İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 1,7 faiz azalmış, qeyri neft-qaz sektorunda isə 3,7 faiz artmışdır.

2022-ci ilə qəbul edilmiş dövlət büdcəsində neft transferlərinin əvvəlki illə müqayisədə artması milli valyutanın məzənnəsinin dayanıqlığını dəstəkləyəcəkdir. Digər tərəfdən anti-inflyasiya xarakterli pul siyasəti daxili tələbin monetar amillərin tarazlı səviyyədə qorunmasına xidmət edəcəkdir. Müvəqqəti xarici və daxili xərc amillərinin qiymətlərə təsiri neytrallaşdıqca, balanslaşdırıcı rol oynayan amonetar amillərin inflyasiyaya azaldıcı təsirləri güclənəcək.

Ölkə əhalisinin sosial müdafiəsinin gücləndirilməsi aparılan sosial-iqtisadi siyasətin mühüm prioritetlərindən biridir. Son illərdə bu istiqamətdə ciddi irəliləyişlərə nail olunmuş, əhalinin sosial müdafiəsinin gücləndirilməsi,sosial ödənişlərin,əməkhaqlarının artırılması istiqamətində ardıcıl addımlar atılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 05 yanvar tarixli 2965 nömrəli Sərəncamının icrası ilə əlaqədar minimum aylıq əməkhaqqının məbləği 2023-cü il yanvarın 1-dən 345 manat müəyyən edilmişdir. 2023-cü ilin avqust ayında "Moody's" beynəlxalq reytinq agentliyi Azərbaycan iqtisadiyyatı üçün reytinqini "Ba1" səviyyəsində təsdiqləyib və proqnoz sabit olaraq qalıb. Siyasi və iqtisadi vəziyyətin mövcud təsirlərini proqnozlaşdırmaq çətindir, lakin bunun Azərbaycan iqtisadiyyatına təsiri daha çox ola bilər və bu da dövlət maliyyəsinin pisləşməsinə, maliyyə bazarlarının qeyri-sabitliyinə, kapital bazarlarında qeyri-likvidliyə, inflyasiyanın artmasına və milli valyutanın əsas xarici valyutalara nisbətdə dəyərdən düşməsinə gətirib çıxara bilər. Mövcud iqtisadi vəziyyətin gələcək təsirlərini və yuxarıda qeyd olunan tədbirləri qabaqcadan

**2. Əməliyyat mühiti (davamı)**

proqnozlaşdırmaq nisbətən mürəkkəb olduğuna görə rəhbərliyin iqtisadi mühitlə bağlı cari proqnozları və təxminləri faktiki nəticələrdən fərqli ola bilər. Gözlənilən kredit zərərinin ("GKZ") qiymətləndirilməsi məqsədilə, Cəmiyyət makroiqtisadi dəyişənlər üzrə proqnozlar daxil olmaqla, dəstəkləyici gələcək məlumatlardan istifadə edir. Hər bir iqtisadi proqnozda olduğu kimi, onların reallaşması ilə bağlı fərziyyələr və ehtimallar yüksək dərəcəli qeyri-müəyyənliklə əlaqəlidir və buna görə də faktiki nəticələr proqnozlaşdırılan nəticələrdən əhəmiyyətli dərəcədə fərqlənə bilər. Cəmiyyətin rəhbərliyi mövcud iqtisadi

mühitdə baş verən prosesləri müşahidə edir və Cəmiyyətin yaxın gələcəkdə fəaliyyətinin dayanıqlığını və inkişafını təmin etmək üçün qabaqlayıcı tədbirlər görür.

**3. Əhəmiyyətli uçot qaydalarının icmalı**

**Ümumi mülahizələr**

Maliyyə hesabatı Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası (BMUSŞ) tərəfindən təqdim edilmiş, Maliyyə Hesabatının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq hazırlanmışdır

Hazırkı maliyyə hesabatları hər növ aktiv, öhdəlik, gəlir və xərc üzrə MHBS ilə müəyyən edilmiş qiymətləndirmə prinsiplərindən istifadə etməklə hazırlanmışdır. Qiymətləndirmə prinsipləri aşağıdakı uçot qaydalarında daha dolğun təsvir edilir.

**Funksional və təqdimat valyutası**

Cəmiyyətin əməliyyat valyutası Azərbaycan Respublikasının milli valyutası olan və baş verən əksər hadisələrin və onlarla bağlı vəziyyətlərin iqtisadi mahiyyətini əks etdirən Azərbaycan Manatıdır ("AZN"). 31 dekabr 2023-cü il tarixinə xarici valyuta qalıqlarının çevrilməsi üçün əsas mübadilə məzənnəsi aşağıdakı kimi olmuşdur: 1 ABŞ dolları = 1.7000 AZN və 1 Avro = 1.8766 AZN (31 dekabr 2022-ci il: 1 ABŞ dolları = 1.7000 AZN və 1 Avro = 8114 AZN). Azərbaycan Manatı (AZN) həmçinin bu maliyyə hesabatlarının məqsədləri üçün təqdimat valyutasıdır.

**Xarici valyuta ilə həyata keçirilən əməliyyatlar və qalıqlar**

Xarici valyuta ilə əməliyyatlar əməliyyatların tarixlərində qüvvədə olan müvafiq valyuta məzənnələrini (spot məzənnəsi) tətbiq etməklə funksional valyutaya çevrilir. Bu əməliyyatlar üzrə hesablamalardan və monetar maddələrin ilin sonuna olan məzənnə ilə təkrar qiymətləndirilməsindən yaranan məzənnə gəlirləri və zərərləri mənfəət və ya zərərdə tanınır. Ədalətli dəyərin müəyyən edildiyi tarixdə məzənnələrdən istifadə etməklə çevrilən ədalətli dəyərlə ölçülmüş qeyri-monetar maddələrdən başqa qeyri-monetar maddələr ilin sonuna təkrar çevrilmir və ilkin maya dəyəri ilə qiymətləndirilir (əməliyyat tarixində məzənnələrdən istifadə etməklə çevrilir).

**Qeyri-maddi aktivlər**

Cəmiyyətin bütün qeyri-maddi aktivləri müəyyən faydalı xidmət müddətinə malik olmaqla əsasən kapitallaşdırılmış proqram təminatından ibarətdir. Əldə edilmiş proqram təminatı onların alınması və tətbiq edilməsi üçün çəkilmiş xərclərin əsasında kapitallaşdırılır. Qeyri-maddi aktivlər üzrə amortizasiya qeyri-maddi aktivin istifadə müddətinə görə təyin olunur. İstifadə müddəti bilinməyən qeyri-maddi aktivlər üzrə amortizasiya illik 10% tətbiq edilməklə hesablanır.

**Əsas vəsaitlər**

Əsas vəsaitlər yığılmış köhnəlmə və lazım olduqda, dəyərsizləşmə üzrə ehtiyat çıxılmaqla, aşağıda göstərilən dəyərlə uçota alınır. Aktivin ilkin dəyəri onun alış dəyəri və ya tikinti xərcləri, bu aktivin istismara verilməsi ilə birbaşa bağlı olan xərclər, onun silinməsi öhdəliyi (əgər varsa) üzrə ilkin təxminlər və bütün şərtlərə cavab verən aktivlər üçün borc öhdəlikləri üzrə xərclərdən ibarətdir. Maliyyə lizinqi müqaviləsinə əsasən əldə edilmiş aktivlər də əsas vəsaitlərə daxildir.

## 3. Əhəmiyyətli uçot qaydalarının icmalı (davamı)

### Köhnəlmə

Bina, qurğu və avadanlıqlar üçün köhnəlmə onların gözlənilən faydalı istifadə müddəti üzrə azalan qalıq metodu ilə hesablanır. Gözlənilən faydalı istifadə müddəti, qalıq dəyəri və köhnəlmə metodu hər hesabat dövrünün sonunda yenidən nəzərdən keçirilir və mümkün dəyişikliklər perspektiv əsasla uçota alınır.

Cəmiyyətin əsas vəsaitlərinin təxmin edilən faydalı istifadə müddəti aşağıda göstərilir:

| | **2022** | **2021** |
|---|---|---|
| Binalar, tikillər və qurğular | 7% | 7% |
| Maşın və avadanlıqlar | 20%-25% | 20%-25% |
| Nəqliyyat vasitələri | 25% | 25% |
| Digər əsas vəsaitlər | 20% | 20% |
| Qeyri maddi aktivlər | 10% | 10% |

Torpaq və tikintisi tamamlanmamış aktivlər üzrə köhnəlmə hesablanmır.

Əsas vəsaitlərin faydalı istifadə müddəti hər il nəzərdən keçirilir və lazım olduqda onların faydalı istifadə müddətindəki dəyişikliklər perspektiv qaydada uçota alınır. Aktiv artıq köhnəlmiş və istismar müddətinin sonunda olacağı vəziyyətdə olarsa, Cəmiyyətin həmin aktivin satışı nəticəsində əldə edəcəyi təxmini məbləğ, satış üzrə təxmini xərclər çıxılmaqla, aktivin qalıq dəyərinə bərabər olur. Əgər Cəmiyyət aktivlərini fiziki istismar müddətinin sonuna qədər istifadə etməyi nəzərdə tutursa və ləğv etmə dəyəri əhəmiyyətli deyilsə, aktivin qalıq dəyəri sıfıra bərabər olur. Aktivlərin qalıq dəyəri lazım olduqda hər bir ilkin maliyyə vəziyyəti haqqında hesabatın tarixində nəzərdən keçirilir və təshih edilir.

### Qeyri-maliyyə aktivlərinin dəyərdən düşmə testi

Dəyərsizləşməni qiymətləndirmək məqsədləri üçün aktivlər əsasən müstəqil pul vəsaitlərinin hərəkətləri (pul vəsaitlərini yaradan vahidlər) olan ən aşağı səviyyələrdə qruplaşdırılır. Beləliklə, bəzi aktivlər dəyərsizləşmə üçün fərdi olaraq, bəziləri isə pul vəsaitlərini yaradan vahidlər səviyyəsində test edilir.

Bütün fərdi aktivlər və ya pul vəsaitlərini yaradan vahidlər hadisələr və ya şəraitlərdə dəyişikliklər balans dəyərinin bərpa oluna bilmədiyinə işarə etdiyi halda dəyərsizləşmə üzrə test edilir. Dəyərsizləşmə zərəri aktivin və ya pul vəsaitlərini yaradan vahidin balans dəyəri bərpa dəyərindən artıq məbləğ üzrə tanınır. Aktivin bərpa dəyəri onun satışı üzrə məsrəflər çıxılmaqla, ədalətli dəyəri və istifadə dəyərindən daha yüksək olan dəyəridir. İstifadə dəyərini müəyyən etmək üçün rəhbərlik hər pul vəsaitlərini yaradan vahiddən gözlənilən gələcək pul vəsaitlərinin hərəkətini qiymətləndirir və həmin pul vəsaitlərinin hərəkətinin diskontlaşdırılmış dəyərini hesablamaq məqsədilə uyğun faiz dərəcəsini müəyyən edir.

Bütün aktivlər daha sonra əvvəllər tanınmış dəyərsizləşmə zərərinin artıq olmaya biləcəyinə dair göstəricilərə yenidən baxılır. Pul vəsaitlərini yaradan vahidin bərpa edilə bilən məbləği balans dəyərindən artıq olduqda dəyərdən düşmə zərəri geri qaytarılır.

### Maliyyə alətləri - əsas qiymətləndirmə üsulları

Təsnifat formalarından asılı olaraq maliyyə alətləri ədalətli dəyərdə və ya amortizasiya olunmuş dəyərdə qeydə alınır. Həmin qiymətləndirmə üsulları aşağıda əks etdirilir. Ədalətli dəyər ölçmə tarixində bazar iştirakçıları arasında aparılan müntəzəm əməliyyat zamanı aktivin satılması üçün alına bilən və ya öhdəliyi köçürmək üçün ödənilə bilən məbləğdir. Ədalətli dəyər ölçülərkən aktivin satılması və ya öhdəliyin köçürülməsi əməliyyatının aşağıdakı yerlərdən birində aparılması ehtimal edilir:

- Aktivin və ya öhdəliyin əsas bazarı; və ya
- Əsas bazar olmayanda, aktivin və ya öhdəliyin ən əlverişli bazarı.

**3. Əhəmiyyətli uçot qaydalarının icmalı (davamı)**

Cəmiyyətin əsas və ya ən əlverişli bazara çıxışı olmalıdır. Aktivin və ya öhdəliyin ədalətli dəyəri bazar iştirakçıları aktivi və ya öhdəliyi qiymətləndirərkən istifadə etdiyi fərziyyələri istifadə etməklə ölçülməlidir və bu zaman ehtimal edilməlidir ki, bazar iştirakçıları öz hərəkətlərində ən yaxşı iqtisadi mənafelərini güdürlər. Qeyri-maliyyə aktivinin ədalətli dəyəri ölçülərkən bazar iştirakçısının aktivi maksimal və ən yaxşı şəkildə istifadə etməklə və ya onu maksimal və ən yaxşı şəkildə istifadə edəcək digər bazar iştirakçısına satmaqla iqtisadi fayda əldə etmək qabiliyyəti nəzərə alınır.

Cəmiyyət mövcud şəraitdə münasib olan və ədalətli dəyəri ölçmək üçün kifayət qədər məlumatları olan, müvafiq bazar məlumatlarını maksimal istifadə edən və müşahidə edilməyən məlumatların istifadəsini minimuma endirən qiymətləndirmə üsullarını istifadə edir.

Maliyyə hesabatlarında ədalətli dəyəri ölçülən və ya təqdim edilən bütün aktivlər və öhdəliklər ədalətli dəyərin ölçülməsi üçün ümumiyyətlə əhəmiyyətli olan ən aşağı səviyyəli giriş məlumatları əsasında ədalətli dəyər iyerarxiyasının daxilində aşağıda təsvir olunan kateqoriyalara bölünür:

- Səviyyə 1 – Oxşar aktivlər və ya öhdəliklər üçün fəal bazarlarda mövcud olan (təshih edilməmiş) bazar qiymətləri;
- Səviyyə 2 – Ədalətli dəyərin ölçülməsi üçün əhəmiyyətli olan ən aşağı səviyyəli giriş məlumatları birbaşa və ya dolayısı ilə müşahidə edilən qiymətləndirmə üsulları;
- Səviyyə 3 – Ədalətli dəyərin ölçülməsi üçün əhəmiyyətli olan ən aşağı səviyyəli giriş məlumatları müşahidə edilməyən qiymətləndirmə üsulları.

Maliyyə hesabatlarında dövri şəkildə tanınan aktivlər və öhdəliklər üçün Cəmiyyət hər hesabat dövrünün sonunda kateqoriyalara bölməni yenidən qiymətləndirərək iyerarxiyanın daxilində səviyyələr arasında köçürmələrin baş verib-vermədiyini müəyyən edir (ədalətli dəyərin ölçülməsi üçün ümumiyyətlə əhəmiyyətli olan ən aşağı səviyyəli giriş məlumatları əsasında).

*İlkin dəyər* alış tarixinə aktivi almaq üçün ödənilmiş pul və ya pul vəsaitləri ekvivalentlərinin məbləğini və yaxud verilmiş digər resursların ədalətli dəyərini əks etdirir və əməliyyat xərclərini ehtiva edir.

*Amortizasiya olunmuş maya dəyəri* əsas məbləğin qaytarılmasını çıxmaqla, lakin hesablanmış faizləri daxil etməklə, maliyyə aktivləri üçün isə dəyərsizləşmə zərərləri üzrə hər hansı silinməni çıxmaqla maliyyə alətinin ilkin tanındığı məbləğdir. Hesablanmış faizlərə ilkin uçot zamanı təxirə salınmış əməliyyat xərclərinin və effektiv faiz metodundan istifadə etməklə ödəniş məbləği üzrə hər hansı mükafat və ya diskontun amortizasiyası daxildir. Hesablanmış faiz gəlirləri və faiz xərcləri ayrıca göstərilmir və maliyyə vəziyyəti haqqında hesabatın müvafiq maddələrinin balans dəyərinə daxil edilir.

*Effektiv faiz dərəcəsi metodu* maliyyə alətinin balans dəyəri üzrə sabit faiz dərəcəsinin (effektiv faiz dərəcəsi) təmin edilməsi üçün faiz gəlirləri və ya xərclərinin müvafiq dövr ərzində bölüşdürülməsi metodudur. Effektiv faiz dərəcəsi, təxmin edilən gələcək pul ödənişlərini və ya daxilolmaları (kreditlər üzrə gələcək zərərlər xaric olmaqla) maliyyə alətinin gözlənilən fəaliyyət müddəti ərzində və ya müvafiq hallarda daha qısa müddət ərzində maliyyə alətinin xalis balans dəyərinə diskontlaşdıran dəqiq dərəcədir.

**Maliyyə aktivləri**

**Maliyyə alətlərinin ilkin tanınması**

Ticarət olunan qiymətli kağızlar, törəmə alətlər və digər ədalətli dəyəri mənfəət və ya zərərdə tanınan maliyyə alətləri ilkin olaraq ədalətli dəyərdə ölçülür. Digər maliyyə alətləri, ilk öncə ədalətli dəyərdə, həmçinin əldə edilməsinə və buraxılmasına birbaşa aid olan mənfəət və ya zərər, əməliyyat xərcləri ilə ədalətli dəyərdə olmayan predmet üzrə ölçülür. İlkin tanınma zamanı ədalətli dəyər ən yaxşı olaraq əməliyyat qiyməti ilə sübut edilir. İlkin tanınma zamanı yalnız ədalətli dəyər ilə əməliyyat qiyməti arasında fərq olduqda yaranan mənfəət və ya zərər qeydə alınır. Ədalətli dəyər eyni maliyyə aləti ilə aparılan digər cari bazar əməliyyatlarının müşahidəsi və yaxud həmin bazarlardan əldə edilən məlumatlara əsaslanan qiymətləndirmə üsulu ilə sübut edilir.

**3. Əhəmiyyətli uçot qaydalarının icmalı (davamı)**

Qanunvericilik və ya mövcud bazar qaydaları ilə müəyyən edilmiş vaxt çərçivəsində alınıb satılması nəzərdə tutulan maliyyə aktivləri ("standart şərtlərlə həyata keçirilən" alış və satışlar) Cəmiyyətin maliyyə aktivini almaq və ya satmaq öhdəliyini qəbul etdiyi əməliyyat tarixində qeydə alınır. Alış üzrə bütün digər əməliyyatlar Cəmiyyətin həmin maliyyə aləti üzrə müqavilə tərəfi olduqda tanınır.

**Maliyyə alətlərinin təsnifatı**

İlkin tanımada maliyyə aktivi amortizasiya dəyərində, digər məcmu gəlir vasitəsilə ədalətli dəyərdə ("DMGƏD") ölçülmüş dəyərdə və ya mənfəət və ya zərər hesabına ədalətli dəyərdə ("MZHƏD") təsnif edilir.

Maliyyə aktivi aşağıdakı şərtlərin hər ikisinə cavab verdikdə və MZHƏD kimi müəyyən edilmədikdə, amortizasiya olunmuş dəyərində ölçülür:

- Müqavilə üzrə pul axınlarını toplamaq üçün aktivləri saxlamaq məqsədi daşıyan biznes modeli çərçivəsində saxlanılır; və
- Müqavilə şərtləri müəyyənləşdirilmiş tarixlərdə ödənilməmiş əsas məbləğ üzrə yalnız əsas məbləğ və faizin ödənişlərindən (YƏMFÖ) ibarət olan pul axınlarına təkan verir.

Maliyyə aktivi aşağıdakı şərtlərin hər ikisini ödədikdə və MZHƏD kimi müəyyən edilmədikdə, DMGƏD-də ölçülür:

- Həm müqavilə üzrə pul axınlarının toplanması və həm də maliyyə aktivlərinin satılması məqsədi daşıyan biznes modeli çərçivəsində saxlanılır; və
- Müqavilə şərtləri müəyyənləşdirilmiş tarixlərdə ödənilməmiş əsas məbləğ üzrə yalnız əsas məbləğ və faizin ödənişlərindən ibarət olan pul axınlarına təkan verir.

Ticarət üçün nəzərdə tutulmayan kapital qoyuluşunun ilkin tanınması zamanı Cəmiyyət ədalətli dəyərdəki sonrakı dəyişiklikləri digər məcmu gəlirdə (DMG) təqdim etməyi seçə bilər. Bu seçim hər bir kapital qoyuluşu üçün ayrıca edilir.

Bütün digər maliyyə aktivlər MZHƏD-də ölçülmüş kimi təsnif edilir.

Bununla yanaşı, ilkin tanıma zamanı Cəmiyyət amortizasiya olunmuş dəyərində və ya DMGƏD-də ölçülmə tələblərinə uyğun gələn maliyyə aktivini MZHƏD kimi təsnif edə bilər, o halda ki, bu, meydana çıxacaq uçot uyğunsuzluğunu aradan qaldırsın və ya əhəmiyyətli dərəcədə azaltsın.

**Biznes modelinin qiymətləndirilməsi**

Cəmiyyət maliyyə aktivinin saxlandığı biznes modelinin məqsədini qiymətləndirir, çünki bu, biznesin idarə olunması və məlumatların rəhbərliyə təqdim edilməsi üsulunu daha düzgün əks etdirir. Bu zaman aşağıdakı məlumatlar nəzərə alınır:

- portfel üçün müəyyən edilmiş siyasətlər və məqsədlər, həmin siyasətlərin praktikada tətbiqi, o cümlədən rəhbərliyin strategiyasının müqavilə üzrə faiz gəlirlərinin əldə edilməsinə, xüsusi faiz dərəcəsi profilinin saxlanmasına, maliyyə aktivlərinin müddətinin həmin aktivləri maliyyələşdirən öhdəliklərin müddətinə uyğunlaşdırılmasına və ya aktivlərin satışı vasitəsilə pul axınlarının realizasiyasına fokuslanıb-fokuslanmaması;
- portfelin göstəriciləri necə qiymətləndirilir və Cəmiyyətin rəhbərliyinə necə çatdırılır;
- biznes modelinin (və həmin biznes modeli çərçivəsində saxlanılan maliyyə aktivlərinin) performansına təsir edən risklər və bu risklərin necə idarə olunması;
- biznesin menecerləri necə mükafatlandırılır – məsələn, mükafatlandırma idarə olunan aktivlərin ədalətli dəyərindən və ya toplanmış pul axınlarından asılıdırmı; və
- əvvəlki dövrlərdə satışların tezliyi, həcmi və müddəti, bu satışların səbəbləri və gələcək satış fəaliyyəti barədə gözləntilər. Bununla belə, satış fəaliyyəti barədə məlumat ayrıca deyil, maliyyə aktivlərinin idarə olunması üzrə Cəmiyyətin məqsədinə necə nail olunmasının və pul axınlarının necə realizasiya edilməsinin ümumi qiymətləndirilməsi çərçivəsində nəzərə alınır.

**3. Əhəmiyyətli uçot qaydalarının icmalı (davamı)**

**Maliyyə alətlərinin yenidən təsnifi**

Maliyyə aktivləri Qriupun maliyyə aktivlərini idarə etmək üçün öz biznes modelini dəyişdirdikdən sonra dövr ərzində istisna olmaqla, maliyyə aktivləri ilkin tanınmalarından sonra yenidən təsnifləşdirilmir. Yenidən təsnifat perspektiv təsirə malikdir.

**Maliyyə alətlərinin dəyərsizləşməsi – GKZ üzrə kredit zərəri ehtiyatı**

Cəmiyyət AD və DMGƏD ilə ölçülmüş borc alətləri və kredit öhdəlikləri və maliyyə zəmanəti müqavilələri üzrə GKZ-u perspektiv əsasda ölçür. Cəmiyyət GKZ-u ölçür və hər hesabat dövrünə kredit zərəri üzrə ehtiyatı tanıyır. GKZ ölçülməsi: (i) mümkün nəticələrin bir sıra qiymətləndirilməsi ilə təyin olunan qərəzsiz və ehtimallı məbləğini (ii) pul vəsaitlərinin müddət dəyərini və (iii) keçmiş hadisələr, gələcək şərtlər və gələcək şəraitin proqnozları barədə hər bir hesabat dövrünün sonunda qeyri-adekvat xərc və səy olmadan mövcud olan bütün məqbul və dəstəklənən məlumatları əks etdirir.

AD ilə ölçülmuş borc vəsaitləri GKZ üzrə ehtiyat çıxılmaqla maliyyə vəziyyəti haqqında hesabatında göstərilir. Kredit öhdəlikləri və maliyyə zəmanətləri üçün, GKZ üzrə ayrı ehtiyat, maliyyə vəziyyəti haqqında hesabatında öhdəlik olaraq tanınır.

DMGƏD-də borc alətləri üçün GKZ üzrə ehtiyat çıxılmaqla amortizasiya dəyərindəki dəyişiklik, mənfəət və ya zərər və digər qalıq dəyərindəki dəyişiklik isə DMG-də gəlirlər DMGƏD borc alətləri üzrə zərərlər çıxılmaqla tanınır.

**Dəyərsizləşmədə "Sadələşdirilmiş yanaşma"**
9 saylı MHBS Cəmiyyətə ticarət debitor borcları, müqavilə aktivləri və lizinq debitor borcları üçün sadələşdirilmiş yanaşma tətbiq etməyə imkan verir. Sadələşdirilmiş yanaşma, Cəmiyyətə kredit riskinin əhəmiyyətli dərəcədə artımını müəyyənləşdirmədən bütün bu aktivlər üzrə ömürlük gözlənilən zərərləri tanımağa imkan verir. Müəyyən uçot siyasəti seçimlərinə tətbiq olunur:

- Ticarət debitor borcları və əhəmiyyətli bir maliyyələşdirmə komponenti olmayan müqavilə aktivləri üçün ömürlük gözlənilən zərər ehtiyatını tanımaq tələb olunur (yəni müəssisə həmişə sadələşdirilmiş yanaşma tətbiq etməlidir).
- Digər ticarət debitor borcları, digər müqavilə aktivləri, əməliyyat lizinqi debitor borcları və maliyyə lizinqi debitor borcları üçün bu, hər bir aktiv növü üçün ayrıca tətbiq oluna bilən uçot siyasəti seçimidir (lakin müəyyən bir növün bütün aktivlərinə aiddir).

**Maliyyə vəziyyəti haqqında hesabatda GKZ üzrə ehtiyatın təqdim edilməsi**

GKZ üzrə zərər ehtiyatları maliyyə vəziyyəti haqqında hesabatda aşağıdakı kimi təqdim olunur:

- amortizasiya olunmuş dəyərdə ölçülən maliyyə aktivləri: aktivlərin ümumi qalıq dəyərindən çıxılmaqla;
- kredit öhdəlikləri və maliyyə təminatı müqavilələri: ümumiyyətlə, ehtiyat kimi;
- maliyyə aləti həm çıxarılmış, həm də istifadə edilməmiş komponentdən ibarət olduğu halda və Cəmiyyət, kredit öhdəliyi komponenti üzrə GKZ-ni çıxarılmış komponentdən ayrı olaraq müəyyən edə bilmədiyi halda: Cəmiyyət hər iki komponent üzrə birgə zərər ehtiyatı təqdim edir. Birləşdirilmiş məbləğ yerinə yetirilmiş komponentin ümumi qalıq dəyərindən çıxılmaqla təqdim edilir. Çıxarılmış komponentin ümumi məbləği üzrə zərər ehtiyatının hər hansı bir hissəsi ehtiyat kimi təqdim olunur; və
- DMGƏD-də ölçülən borc alətləri: aktivlərin qalıq məbləği onların ədalətli dəyəri olduğu üçün, heç bir zərər ehtiyatı maliyyə vəziyyəti haqqında hesabatda tanınmır. Bununla yanaşı, zərər ehtiyatı ədalətli dəyər ehtiyatının bir hissəsi kimi tanınır.

**3. Əhəmiyyətli uçot qaydalarının icmalı (davamı)**

**Maliyyə aktivlərinin silinməsi**

Cəmiyyət bütün praktiki bərpaetmə səylərini tükətdikdə və bərpa etmək üçün ağlabatan bir gözləntinin olmadığı qənaətinə gəldikdə, maliyyə aktivləri tamamilə və ya qismən silinir. Silinmələr tanınmanın dayandırılmasını əks etdirir. Cəmiyyət, müqaviləyə əsasən ödənilən məbləğləri bərpa etmək istədiyi halda, hələ də icra fəaliyyətinə məruz qalan maliyyə aktivlərini silə bilər; lakin bərpa üçün ağlabatan gözlənti yoxdur.

**Maliyyə aktivlərinin tanınmasının dayandırılması**

Cəmiyyət aşağıdakı hallarda maliyyə aktivlərinin tanınmasını dayandırır: (a) aktivlər geri alındıqda və ya bu aktivlərlə əlaqədar pul vəsaitlərinin hərəkəti üzrə hüquqların müddəti başa çatdıqda və ya (b) Cəmiyyət maliyyə aktivlərindən daxil olan pul vəsaitlərinin axını üzrə mülkiyyət hüququnu ötürdükdə və ya ötürülmə haqqında müqavilə bağladıqda və bu zaman (i) həmin aktivlərin mülkiyyət hüququ ilə əlaqədar bütün risk və faydaları əsas etibarilə başqa tərəfə ötürdükdə və ya (ii) bu aktivlərin mülkiyyət hüququ ilə əlaqədar bütün risk və faydaları əsas etibarilə ötürmədikdə və ya saxlamadıqda, lakin, həmin aktivlər üzrə nəzarət hüququnu özündə saxlamadıqda. Nəzarət qarşı tərəfin öz mülkiyyətində olan aktivi satış üzrə əlavə məhdudiyyətlər qoymadan əlaqəli olmayan üçüncü tərəfə satmaq üçün praktiki imkana malik olmadığı hallarda saxlanılır.

**Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri**

Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri müəyyən nağd pula çevrilə bilən və dəyəri əhəmiyyətsiz dəyişiklik riskinə məruz qalan maddələrdir. Maliyyə vəziyyəti haqqında hesabatda pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərinə banklarda cari hesab qalıqlarını əks etdirir və ilkin olaraq və sonradan ədalətli dəyərlə uçota alınır.
Pul vəsaitlərinin hərəkəti haqqında hesabatın məqsədləri üçün banklarla olan qalıqlar və nəğd pul vəsaitləri pul vəsaitlərinin ekvivalentləri hesab olunur.

**İşçilərin mükafatlandırılması**

**İşçilərin qısa-müddətli mükafatlandırılması**

İşçilərin qısa müddətli mükafatlandırılmasının xərci (xidmətdən sonra on iki ay ərzində olan) xidmətin göstərildiyi və diskont edilmədiyi dövrdə tanınır.

Ödənişli məzuniyyətlərin gözlənilən xərci işçilərin hüququnu artıran xidmətlər gördüyü və ya yığılmayan məzuniyyətlər zamanı isə məzuniyyətin baş verdiyi halda xərc kimi tanınır.

**Xidmətin sonunda mükafatlandırılma**

Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən, Cəmiyyət özünün ayırmaları ilə yanaşı olaraq işçilərin əmək haqqından pensiya ayırmaları məbləğlərini tutmaqla dövlət pensiya fonduna ödəniş edir. Pensiyaya çıxdıqda bütün pensiya ödənişləri dövlət pensiya fondu tərəfindən edilir.

**Ehtiyatlar və şərti öhdəlikər**

Ehtiyatlar cari öhdəliklərin keçmiş hadisə səbəbindən Cəmiyyətdən iqtisadi mənbələrin məxaricinə gətirəcəyi və məbləğlərin etibarlı şəkildə hesablana bildiyi halda tanınır. Məxaricin müddəti və məbləği hələ də qeyri-müəyyən ola bilər. Cari öhdəlik keçmiş hadisələrin (misal üçün, hüquqi mübahisələr və ya yüklənmiş müqavilələr) səbəb olduğu hüquqi və konstruktiv öhdəliklərdən yarana bilər.

Ehtiyatlar hesabat tarixində mövcud olan ən etibarlı sübuta, o cümlədən, cari öhdəliklə bağlı risklərə və qeyri-müəyyənliklərə əsaslanan cari öhdəliyi yerinə yetirmək üçün tələb olunan hesablanmış məsrəf ilə qiymətləndirilir. Oxşar öhdəliklərin olduğu halda öhdəliyin ödənilməsində məxaricin tələb olunacağı ehtimalı bütün öhdəliklər sinfi nəzərə alınmaqla müəyyən edilir. Ehtiyatlar onların diskontlaşdırılmış dəyərinə qədər diskont edilir. Burada pulların vaxt dəyəri əhəmiyyətlidir.

**3. Əhəmiyyətli uçot qaydalarının icmalı (davamı)**

